*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 438-445*
https://doi.org/10.62837/2024.4.438
Filol. ü. f. d. Dosent **YEGANƏ HÜSEYNONA**
Gəncə Dövlət Universiteti
yeganesabirhuseynli@gmail.com

# MİLLİ İSTİQLAL ƏDƏBİYYATININ SƏRKƏRDƏSİ – C. MƏMMƏDQULUZADƏ

***Xülasə:***

Cəlil Məmmədquluzadənin dramaturji irsi, ictimai mənada zənginliyi, zamanın mühüm problemlərinin yüksək sənətkarlıqla əks etdirilməsi baxımından seçilir. Cəlil Məmmədquluzadə əsərlərində insan xarakterini, onun təşəkkül və inkişafını; ictimai konfliktin yaranmasını və kəskinləşməsini qarşılıqlı münasibətdən doğan mükalimə vasitəsi ilə açır. Onun zəngin və çoxşaxəli ədəbi irsi içərisində dramaturgiyası xüsusi yer tutur və Azərbaycan dramaturgiyası tarixində “ictimai məzmuna, ideyasına, həm də sənətkarlıq xüsusiyyətlərinə görə” yeni mərhələ təşkil edir. Mirzə Cəlilin dramaturji yaradıcılığı ilk növbədə Mirzə Fətəli Axundovun və daha sonra Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin, Nəriman Nərimanovun dramaturgiyası ilə sıx surətdə bağlı idi. Daha doğrusu, onların yeni zəmində, yeni ictimai-siyasi şəraitdə, ictimai-bədii fikrin ən təlatümlü dövrünün davamı idi. 1905-ci ildən C. Məmmədquluzadə yaradıcılığının inkişafında yeni mərhələ başlanır. Hər bir ədəbi növ özlüyündə yeni inkişaf mərhələsindən keçir. 1905-ci illəri əhatə edən bu dövrdə ədibin hekayələri həm mövzu, həm də bədii sənətkarlıq cəhətdən daha da inkişaf edir, zənginləşir.
***Açar sözlər: Ədib, milli, yaradıcılıq, ədəbiyyat, dramaturgiya***

Azərbaycan ictimai fikir tarixində ilk milli mətbuat və demokratik “Əkinçi” qəzeti ilə başlanan mütərəqqi ənənəni Cəlil Məmmədzuluzadənin nəşr etdirdiyi “Molla Nəsrəddin” jurnalı özünəməxsus tərzdə inkişaf etdirirdi. Jurnal xalqın dözülməz həyatı, hökumətin müstəmləkəçi siyasəti, beynəlxalq irtica, millət, din, dil, maarif, məktəb kimi mühüm məsələlərdən yazırdı. Cəlil Məmmədquluzadə böyük bir ədəbi məktəb yaratmış Azərbaycan ədəbiyyatında yeni bir cığır açan ədibdir. Cəlil Məmmədquluzadə yaratdığı “Molla Nəsrəddin” məcmuəsi Azərbaycanda xalq hərəkatının məna və ruhunu ifadə edən ən nifuzlu bir mətbuat olaraq tanınmışdı. İstər Azərbaycanda, istərsə də yaxın Şərqdə zülmkarlara, istismarçılara qarşı aparılan mübarizədə “Molla Nəsrəddin” mütərəqqi iş görmüşdür. Xalqa arxalanan və “Ey mənim müsəlman qardaşlarım, sizi deyib gəlmişəm!” xitabı ilə başlayan bu məcmuə oxucular arasında müstəsna şöhrət qazanmış, ildırım surəti ilə yalnız Azərbaycanda, Qafqazda deyil, bütün yaxın Şərqdə yayılmışdı. Belə bir xitab ilə başlayan məcmuə öz sadəliyi şirin yumoru, xalqın ürəyindən xəbər verən doğru, təbii yazıları ilə az müddətdə ümumi hörmət və şöhrət qazandı.

C. Məmmədquluzadə “Molla Nəsrəddin” təxəllüsünü təsadüfü olaraq qəbul etməmişdi. Molla Nəsrəddin, Bəhlul Danəndə... özlərini saf adam yerinə qoyaraq ürəklərindəki həqiqəti deməyə yol tapmışdılar. Hakimlər bu adamları dəli sayıb

sözlərinə əhəmiyyət verməzmişlər. Beləliklə, dövlət dairələrindən çoxdan qovulmuş həqiqət bu "divanələr" vasitəsilə yaşayırdı. "Molla Nəsrəddin" təxəllüsünü qəbul edən ədibin qəhrəmanı "kefli" İsgəndər qismən bu əfsanəvi şəxsiyyətlərin yolu ilə gedir. "Molla Nəsrəddin" yalnız Azərbaycan xalqının deyil, əksər Şərq xalqlarının ictimai-mədəni həyatında mühüm rol oynadı. Jurnalın müəlliflərini "yalnız Azərbaycana aid problemlər deyil, bəlkə bütün müstəmləkə və yarımmüstəmləkə olan Şərq ölkələrinin həyatı maraqlandırırdı". Jurnal tez bir zamanda öz ətrafına M. Ə. Sabir, Ə. Haqverdiyev, Ö. Faiq Nemanzadə, Ə. Nəzmi, Ə. Qəmküşar kimi görkəmli şair və jurnalistləri topladı. C. Məmmədquluzadə artıq böyük bir ədəbi məktəbin başçısı, realist-satirik jurnalın redaktoru və naşiri kimi Zaqafqaziyanın mədəni həyatında baş verən hər cür mühüm mədəni kütləvi tədbirlərə, əhəmiyyətli hadisələrə öz münasibətlərini bildirirdi."Molla Nəsərddin" tez bir zamanda rəğbətini qazandığı geniş oxucu kütləsinə, vətəninin azadlıq sevən adamlarına arxalanaraq ictimai tənqid dairəsini böyütdü və məzmununu daha da kəskinləşdirdi. İstər daxildə, istərsə də xaricdə irticaçılar üçün ən qorxulu mənəvi bir qüvvə oldu. Dönə-dönə cəriməyə, senzura, təqibinə məruz qalan və səhifələri ağ buraxılan, bəzən də aylarla, illərlə bağlanan "Molla Nəsrəddin"ində oxuyuruq: "Bu gün Kərbəla meydanı – Azərbaycandakı vətənpərvərlik meydanıdır. Hər kimin bir cüzi din, vətən hissi varsa onun qeydinə qalmalıdır. Məcmuə heç nədən qorxub çəkinmədən, daim öz məqsədində, məsləkində sabit qalır".

Cəlil Məmmədquluzadənin dramaturji irsi, ictimai mənada zənginliyi, zamanın mühüm problemlərinin yüksək sənətkarlıqla əks etdirilməsi baxımından seçilir. Onun hər bir pyesi komik, dramatik və tragik motivlərin qovuşmuş qaynağı şəklində meydana çıxır. Cəlil Məmmədquluzadə belə əsərlərdə insan xarakterlərini, onun təşəkkül və inkişafını; ictimai konfliktlərin yaranmasını və kəskinləşməsini qarşılıqlı münasibətdən doğan mükalimələr vasitəsi ilə açır. Onun zəngin və çoxşaxəli ədəbi irsi içərisində dramaturgiyası xüsusi yer tutur və Azərbaycan dramaturgiyası tarixində "ictimai məzmuna, ideyasına, həm də sənətkarlıq xüsusiyyətlərinə görə" yeni mərhələ təşkil edir. Xalq yazıçısı Mirzə İbrahimov Cəlil Məmmədquluzadə yaradıcılığı haqqında yazırdı: "Cəlil Məmmədquluzadənin komediyaları Azərbaycan dramaturgiyası inkişafının üçüncü dövrünü açır. Bu dövrün xüsusiyyəti realizmin kəskin siyasi aktuallıq kəsb etməsində, satirik dramın yaranmasındadır". Mirzə Cəlilin dramaturji yaradıcılığı ilk növbədə Mirzə Fətəli Axundovun və daha sonra Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin, Nəriman Nərimanovun dramaturgiyası ilə sıx surətdə bağlı idi. Daha doğrusu, onların yeni zəmində, yeni ictimai-siyasi şəraitdə, ictimai-bədii fikrin ən təlatümlü dövrünün davamı idi. 1905-ci ildən C. Məmmədquluzadə yaradıcılığının inkişafında yeni mərhələ başlanır. Hər bir ədəbi növ özlüyündə yeni inkişaf mərhələsindən keçir. 1905-ci illəri əhatə edən bu dövrdə ədibin hekayələri həm mövzu, həm də bədii sənətkarlıq cəhətdən daha da inkişaf edir, zənginləşir. Bu illərdə ədibin yaradıcılığını zamanın, ictimai həyatın daha mühüm məsələləri məşğul edir. İlk əsərlərində əsasən kənd və kəndli həyatından, bəy-xan zülmündən yazan müəllif sonralar hekayələri üçün fəhlə həyatından da mövzu seçir. Zəhmətkeşləri ictimai-siyasi həyatdan,

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 438-445*
səmərəli örnək və mübarizədən uzaqlaşdıran Şərq ətalətinin, dini mövhumatın tənqidi C. Məmmədquluzadə yaradıcılığında mühüm yer tutur.

Cəlil Məmmədquluzadə realizminin ən başlıca xüsusiyyəti onun xəlqiliyindədir. Ədibin yaradıcılığını diqqətlə oxuduqda görürük ki, xəlqilik təkcə milli varlıqla bağlı bir anlayış kimi əks olunmur. Bu həm də yüksək bəşəri keyfiyyətdir. Xəlqilik ədibin əsərlərində milli həyatın, adət-ənənələrin daxili məzmunundan doğur. Xalqın ictimai təşəkkül və varlığının real inkişafı kimi meydana çıxır: "Sizi deyib gəlmişəm ey mənim müsəlman qardaşlarım!... mən sizlə türkün açıq ana dili ilə danışıram. Mən onu bilirəm ki, türk dilində danışmaq eyibdir və şəxsin elminin azlığına dəlalət edir. Amma hərdən… bir ana dilini danışmaqla keçmişdəki gözəl günləri yad etməyin nə eybi var?!". Cəlil Məmmədquluzadənin bədii-publisist yaradıcılığı və çoxcəhətli fəaliyyəti sözün geniş mənasında doğma xalqına və millətinə həsr olunmuşdur. Mirzə Cəlil Azərbaycan ədəbiyyatı tarixində milli və bəşəri yazıçılardan biridir. Çoxəsrlik ədəbi fikir tarixindəki milli ideyalar və proseslər ədibin yaradıcılığının timsalında yüksək səviyyədə inkişaf edərək Azərbaycan ədəbiyyatının həmişəlik bədii sərvətinə çevrilmişdir.

Mirzə Cəlilin milli ideyaları və görüşləri ümumi, mücərrəd anlayışların, baxışların deyil, konkret olaraq mənsub olduğu xalqın və vətənin həyatı, taleyi və tərəqqisi ilə bağlı olan, birbaşa vətənə və millətə xidmət edən mükəmməl bir ədəbi təlimdir. Bu təlim, eyni zamanda Azərbaycan məmləkətinin və xalqının istiqlalına həsr olunmuşdur. Cəlil Məmmədquluzadə Azərbaycanda milli istiqlal ədəbiyyatının bayraqdarı və sərkərdəsidir. Ədib Azərbaycan ədəbiyyatına təkcə milli istiqlal ideyalarını və motivlərini gətirməklə kifayətlənməmiş, özü də şəxsən millətimizin istiqlalı yolunda hər cür fədakarlıqlar göstərmişdir. O, ədəbiyyatda və ictimai həyatda Azərbaycanın milli oyanışı, dirçəlişi və müstəqilliyi uğrunda mübarizənin möhkəm bünövrəsini yaratmışdır. Onun dərin Milli-ictimai məzmuna malik olan hər bir əsəri sanki böyük ədibin öz xalqına bəxş etdiyi mənalı bir "hüriyyət payı"dır. Mirzə Cəlilin bədii nəsri Azərbaycan ədəbiyyatında yeni ədəbi hadisə idi. Real həyat hadisələrinin bədii vasitələrlə təqdim edilməsi, adi, sıravi, zəhmətkeş insanların maraqlı və qəribə taleyinin təsviri, milli oyanış və dirçəlişə çağırış, sadə, koloritli dil və üslub yazıçının bədii nəsrinin-yaradıcılığının əsasını təşkil edir. Lakin…Cəlil Məmmədquluzadə realizminin mahiyyətindən danışarkən onun dramaturgiyasında başlıca olaraq müsbət qəhrəman və müsbət ideal probleminin qoyuluşunu nəzərdən keçirmək lazımdır. Müsbət qəhrəman və müsbət ideal məsələsi böyük sənətkarın zəngin ədəbi irsinin tradikomik mahiyyətini, məzmun və mündəricəsini müəyyən edir. Ədib təsvir etdiyi hadisələrə hər vaxt öz münasibətini bildirmiş, daha çox bitərəf mövqedə dayanmışdır. Belə hallarda oxucu ədibin real və həyati səhnələrdən çıxan nəticəni, ictimai mənanı özü müəyyənləşdirir. Ümumiyyətlə, müsbət qəhrəman məsələsi Mirzə Cəlil realizminin zəif, məhdud cəhəti hesab olunmuşdur. Bu fikrin nə dərəcədə həqiqətə uyğun olub-olmadığını müəyyən etmək üçün ədibin yaradıcılığında müsbət qəhrəman məsələsinin qoyuluşunu, onun müsbət idealı inkişaf üsulunu "Ölülər", "Anamın kitabı", "Dəli yığıncağı", "Kamança" əsərlərində axtarmaq lazımdır.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 438-445*
"Azərbaycanda ədəbi məktəblər" monoqrafiyasında Mir Cəlal Paşayev yazır: "Dramaturgiyamızda bir sıra surətlər var ki, özü-özlüyündə müvəffəqiyyətlidir və yaddan çıxmır. Ancaq bu surətlər məhdud və dar bir dairədən kənara çıxmır və təsəvvürü məşğul etmirlər. Mirzə Cəlil dramaturgiyasında da tiplərin açıq və müstəqil xasiyyətnaməsi verilmir. O, heç bir qəhrəmanını təriflәmir, heç bir mənfi surəti pisləmir. Onun yolu həmişə məcazi, bədii təfəkkür, kinayə yoludur". C. Məmmədquluzadə yaradıcılığının bütün sahələrinə eyni dərəcədə müvəffəq olmuşdur. O, naşir, jurnalist, həm də dramaturq kimi qüdrətli qələmə sahibdir. Mirzə Cəlilin dramaturgiyası onun yaradıcılıq üslubu və metodu ilə əlaqədar olaraq bir çox keyfiyyətlər kəsb etmişdir. Xalqa yaxınlıq heç bir dramatik poeziyanı gözdən salmır, əksinə onun qüvvəsini ikiqat artırır, onu bayağılaşmağa və xırdalaşmağa qoymur. Cəlil Məmmədquluzadənin dramaturgiyaya müraciət etməsində başlıca məqsəd də elə budur – xalqla yaxın olmaq, hansı yolla olursa- olsun dərin yuxuda olan islam millətini oyatmaq; həqiqəti, öz insanlıq ləyaqətini başa salmaq…

"Ey mənim müsəlman qardaşlarım! Əgər bilmək istəsəniz ki, kimin üstünə gülürsünüz, o vaxt qoyunuz qabağınıza aynanı və diqqət ilə baxın camalınıza…". Cəlil Məmmədquluzadənin yaradıcılığının ilk dövründə dediyi bu sözlər onun sonrakı ədəbi fəaliyyətinin, xüsusilə də dramaturgiyasının əsas cəhəti kimi diqqəti cəlb edir. Bu gülüş tənqidin kəskin formasıdır. İslah və məhvedici gülüşdür, eyni zamanda təsdiq edən qüvvədir. Mirzə Cəlil gülüşünün məzmun və mündəricəsini faciə ilə komikliyin qaynayıb- qarışması təşkil edir. "…o vaxt elə güman etməyin ki, Molla Nəsrəddinə gülürsünüz" – deyə ədib "müsəlman qardaşları"nı düşünməyə çağırırdı. C. Məmmədquluzadə yaradıcılığı, üslubunu müəyyənləşdirən əsas xarakterik xüsusiyyət güldürə-güldürə düşündürmək, insanı özünü-özünə tanıtmaqdır. Gülən adamın qəlbi oyanır, beyni fikirləşir. "Tamaşa zalında gülüş nə qədər hiddətlə səslənərsə, saxtakarlıq və eybəcərlik bir o qədər amansızca rüsvay ediləcəkdir". Mirzə Cəlilin bir dramaturq kimi gücü və özünəməxsusluğu da bundadır, təlqin etdiyi müsbət idealını gülüş vasitəsi ilə çatdırır; məkrli fikirləri, saxtakarlığı, eybəcərliyi isə gülüş ilə ələ salır, qamçılayır, məhv edir və gerçəkliyin ziddiyətlərini açır. Müəllif tendensiyası birbaşa deyil, bilavasitə vəziyyətin və hadisələrin özündən meydana çıxır. "… Balamı saldat aparcaqlar, bala vay! Balamı uşkola aparcaqlar, bala vay! Balamın üzünə həsrət qalacam, bala vay!" – deyə çarşablı arvadların dizlərinə döyə-döyə ağlaşmaları, tutduqları matəm gülünc olsa da, dramaturqun oxucuda və tamaşaçıda yaratmağa çalışdığı ictimai və estetik ideal bu vəziyyətin özündən doğur. Bu gülüş "get bu saat uşağını gətir, yoxsa dərini soyaram" – deyə əlində şallaq kəndliləri döyə-döyə əmr verən çavuş Nəzəralıları yüzbaşılar aləminə yönəlmiş tənqidi görmək o qədər də çətin deyildir. Cəlil Məmmədquluzadənin təkcə "Ölülər"ində deyil, "Anamın kitabı", "Danabaş kəndinin məktəbi", "Dəli yığıncağı" əsərlərində müsbət ideal daha çox köhnəliyin amansız ifşa və inkarından doğur. Ədibin pyeslərindəki idealın gücü, idrakı qüvvəsi köhnə cəmiyyətin, tənqid hədəfi kimi götürülmüş tiplərin real, təbii təsviri və həqiqi inikas səviyyəsilə bağlıdır. Burada hər şey öz yerində olduğu üçün müsbət idealın tamamlanmasına kömək etməli olan kənar vasitələrə, qəhrəmanlara çox az, bəlkə də

heç bir ehtiyac qalmır. "Ölülər" C. Məmmədquluzadə dramaturgiyasının şah əsəri olmaqla dramaturgiyamızın nadir incilərindəndir. Azərbaycan dramaturgiyasının istedadlı tədqiqatçısı və tənqidçisi Yaşar Qarayevin haqlı qeyd etdiyi və düzgün müşahidə etdiyi kimi "Ölülər" ictimai, şəxsi, mənəvi həyatda ölülük əleyhinə yazılmış bir əsərdir. Dramaturq bütün psixoloji və fəlsəfi məna ilə cəmiyyətdə ölülüyü ittiham edirdi. Bu ittiham səhnəsi pyesdə ən klassik, qeyri-adi dramatik səhnə idi. Məlum olduğu kimi C. Məmmədquluzadə əsərlərinin mövzusunu adətən yaşadığı mühitdən almışdır. Ədibin "Ölülər", "Anamın kitabı", "Danabaş kəndinin məktəbi", "Dəli yığıncağı" və s. digər əsərlərində müsbət ideal daha çox köhnəliyin amansız ifşa və inkarından doğur. Cəlil Məmmədquluzadənin pyeslərindəki müsbət idealın gücü, idrakı, qüvvəsi, köhnə cəmiyyətin və əsas tənqid hədəfi kimi götürülmüş tiplərin real, təbii təsviri və həqiqi inikas səviyyəsilə bağlıdır. Burada hər şey öz yerində olduğu üçün müsbət idealın tamamlanmasına kömək etməli olan kənar vasitələrə, qəhrəmanlara çox az, bəlkə də heç bir ehtiyac qalmır. "Ölülər" əsəri nəinki Cəlil Məmmədquluzadə yaradıcılığının, həmçinin, XX əsr dramaturgiyamızın ən yüksək zirvəsi sayıla bilər. Bu əsər müəyyən ictimai-tarixi şəraitin məhsulu olsa da, yarandığı dövrlə, zamanla birlikdə keçib gedən əsərlərdən deyildir. İnsanları avamlıqdan, ədalətdən uzaq olmağa, nadanlığın doğurduğu faciələrdən ibrət almağa çağıran "Ölülər" əsəri həmişə yeni müasir fəlsəfi məzmuna malikdir. "Ölülər" ideyasının müsbət idealını əks etdirən komik gülüşün bütün çeşidlərinə acı göz yaşları qarışmışdır. Burada müsbət, mütərəqqi ictimai ideal addımbaşı qanlı faciələrlə qarşılaşmış, dəhşətli hadisələrin, mənən ölmüş bir mühitin qaynağından keçərək əzablı, müsibətli yollarla irəliləməli olmuşdur. Bu satirik gülüşün arxasında xalqın xoşbəxt gələcəyinə tükənməz inam, hər şeyi dəyişdirməyə qadir olan müsbət amal, ictimai-estetik ideal dayanır. "Ölülər" din əleyhinə çevrilmiş və ya yalnız bu məqsədlə yazılmış əsər deyildir. Bu əsər ümumiyyətlə, cəhaləti, geriliyi, ikiüzlülüyü və yalanı ifşa edir. Avamlıq və nadanlığın nə kimi bəlalar olduğunu göstərir. C. Məmmədquluzadə "Ölülər" dünyasının daxili çürüklüyündə, daxili cahalətində nəhayət onu içindən yeyib-dağıdan, özlərini ağıllı hesab edən adamların "Ölülərin dirilməsi" kimi mənasız bir şeyə inandığını göstərir. "Ölülər"də kəskin satira günəş kimi işıq salır, şeyx nəsrullahların, hacı həsənlərin daxilində aydın olmayan heç bir şey qoymur, onların bütün çirkablarını açır, göz önünə sərir. Öldürücü, kəskin gülüşün, satiranın pyesdə əsas yer tutmasına baxmayaraq əsərdə həzin bir kədər, incə və insanın qəlbini duyğulandıran bir lirika da vardır. Bu kədər və lirika Nazlı və yüzlərlə nazlıların məsum və pak xilqətlərin ölülər aləminin bataqlığı içərisində boğulub getməsindən doğur.

Cəlil Məmmədquluzadənin gülüşü də, kədəri də insana olan böyük məhəbbətin ifadəsidir. Bütün xalqların və bütün zamanların böyük yazıçılarında, inamından dönməyən mütəfəkkirlərində olduğu kimi Cəlil Məmmədquluzadənin də insana, xalqa olan məhəbbəti dərin və tükənməzdir. "Sizi deyib gəlmişəm" sözləri mənasız yerə deyilməyibdir. Burada dərin bir məna və hikmət var. Yaradıcılığı qaynaq və daxili enerji və qüvvəyə malik olsa da bu məhəbbətdən, bu hikmətdən irəli gəlir. O, Azərbaycan ədəbiyyatının Nizamidən gələn ölməz humanizmini,

insanpərvərliyini, demokratizmini davam etdirir. İnsana və xalqa olan məhəbbət isə onu həyatın acı və ağır həqiqətini deməyə çağırır. "Ölülər"dəki faciəvilik ayrı-ayrı obrazların fərdi şəxsiyyətlərin taleyi ilə bağlıdır. Əsərin baş qəhrəmanı olan İsgəndərin həyatı bu cəhətdən daha səciyyəvidir. Qəhrəmanın gülüşü dosta da, düşmənə də eyni güclü təsir göstərir. Onun gülüşü güclənən, hər şeyi yandırıb külə döndərən, gah da sakitcə yanan, ətrafına şöle saçan alova bənzəyir. Bir dramaturq kimi C. Məmmədquluzadənin üstün cəhəti odur ki, ədibin yaratdığı mənfi obrazlar öz-özlüyündə müəyyən ictimai zümrəni, təbəqəni, əxlaq tərzini təmsil edən hüquqi tip, xarakter almaqla bərabər, həm də müəllifin müsbət idealını, işıqlı məramını aydınlaşıb üzə çıxmasına xidmət göstərirlər. Bütün mənfi tiplərə qarşı "Ölülər"də qələmə alınan müsbət və canlı tip kefli İsgəndərdir. İsgəndər "ölülər aləminin" saxtakarlığını, yalanını, puç və mənasızlığını faş edib lənətləyir.

İsgəndər sevimli bacısı Nazlını "ölülər aləmi"ndən qurtarmaq, onu bütün daxili bacarıqlarını inkişaf etdirəcək bir həyat yoluna çıxarmaq istəyir. Çünki Nazlılar elə bir cəmiyyətdə yaşayırlar ki, onun bütün dünyadan xəbəri yoxdur, başqa xalqların həyatı və fəaliyyətlərindən bixəbərdirlər, buna görə də öz həyatlarını, ən yaxşı həyat hesab edirlər. Nazlı gəncdir, İsgəndər həyata addımlarını hələ inamla ata bilməyən bu yeniyetmə Nazlını içində olduğu bu dar və bağlı mühitin pəncəsindən qurtarıb geniş və azad həyata çıxarmağı arzu edir. Elə bir həyata ki, onun qapıları bəşər tarixinin hərəkət və inkişaf edib keçdiyi yola çıxır (Yeri gəlmişkən qeyd edim ki, Cəlil Məmmədquluzadənin 1905-1920-ci illərdə qələmə alınmış hekayələrində də ən çox işlənən mövzulardan biri qadın əsarətinə qarşı mübarizə olubdur. Ədibin bir çox hekayələri ya bilavasitə, ya da dolayı yolla bu mövzuya həsr olunmuşdur. Qadın əsarətinə qarşı mübarizə mövzusu ədibin "İranda hüriyyət", "Xanın təsbehi", "Qoşa balınc", "Pirverdinin xoruzu", "Konsulun arvadı", "Qəssab", "Molla Fərzəli" və s. hekayələrində öz ictimai-siyasi həllini bədii cəhətdən tapmışdır. Ümumiyyətlə, Cəlil Məmmədquluzadə istər hekayələrində, istərsə də iri həcimli digər əsərlərində həmişə qadınların ağır, kölə vəziyyətində yaşamasına, həyat sürməsinə qarşı çıxmış, onların azadlığı uğrunda ardıcıl mübarizə aparmışdır).

Nazlı İsgəndərin sözlərindəki mənanı tamamilə anlamasa da, özünə qarşı bu sözlərdə çırpınan bir qəlbin qardaş məhəbbətini duyur. Buna görədir ki, o evdə hamıdan çox İsgəndəri sevir və dönə-dönə: "kefli də olsan sənin sözündən çıxmayacağam" – deyə təkrar edir. Amma çox təəssüf ki, Nazlıda onu düşdüyü çuxurdan çıxartmağa çalışan İsgəndərin çağırışına səs verəcək qüdrət və mənəvi bacarıq yoxdur. Bütün bunlar göstərir ki, İsgəndər heç də hərəkətsiz, fəaliyyətsiz, iradəsiz bir adam deyildir. İsgəndərin birinci fəaliyyəti ondadır ki, "ölülər aləminə" tabe olmur. İkinci fəaliyyəti ondadır ki, bu aləmə qarşı gülür və onu ələ salır, nəhayət bu aləmə qarşı mübarizə elan edir. İsgəndərin vəziyyəti, düşdüyü şərait, əlbəttə, onun əl-qolunu bağlayır.

İsgəndər elə ictimai nöqsanlara qarşı mübarizə aparırdı ki, onları nə islah, nə də zorakılıqla aradan qaldırmaq mümkün deyildi. İsgəndər obrazı qaranlıq mühitdə parlayan ulduzdur. Amma bu ulduz təkdir, köməksizdir, olduğu "dünyanı" işıqlandırmağa çalışsa da tək olduğu üçün çətinlik çəkir. Bu qaranlığa bürünmüş fanatiklər mühitində İsgəndər heç bir xeyirli iş görə bilmir, düşdüyü mühitin

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 438-445*

eybəcərliklərinə tab gətirə bilmir və ətrafında olan cahilləri doğruya inandırmağa çətinlik çəkir, Belə olan təqdirdə çarəni içməkdə, özünü kefliliyə vurmaqda görür. Ətrafında olan yalana, cəhalətə, eybəcərliyə, avamlığa gülür. Qeyd edim ki, İsgəndər bütün bu eybəcərliklərə gülməklə qalmır o həm də bu çirkin həyatra nifrət edir, qəzəblənir, bəzən də həmvətənlərinin geridə qaldığını görüb kədərlənir. Bütün bularla bərabər o, gücsüzdür, sona kimi mübarizə aparmır, yorulur, dərd ona üstün gələndə, avamlar mühitində özünə yer tapmır və ətrafında olan avamları islah edə bilmir, içir və içki İskəndərin faciəsinə çevrilir.

İstifadə olunan ədəbiyyat:

1. Camalov K., Mollanəsrəddinçilərin maarifçilik ideyaları,Elm və təhsil, Bakı, 2015
2. Həbibbəyli İ.,Cəlil Məmmədquluzadənin həyatı, Bakı, 1996
3. Məmmədquluzadə Cəlil, Əsərləri, I cild, Öndər nəşriyyatı, Bakı, 2004
4. Məmmədquluzadə, Seçilmiş əsərləri, dörd cilddə, Öndər nəşriyyatı, Bakı, 2004
5. Məmmədquluzadə Həmidə və Cəlil, Məktublar, Bakı, 1994
6. Paşayev M. C. Azərbaycanda ədəbi məktəblər (1905-1917), Bakı, 2004.

**ЭГАНА ГУСЕЙНОВА**

## ЛИДЕР НАЦИНАЛЬНОЙ НЕЗАВИСМОЙ ЛИТЕРАТУРЫ ДЖ. МАММЕДШГУЛУЗАДЕ

**Ключевые слова:** *Литературное, национальное, творчество, литература, драматургия.*

Драматургическое наследие Джалила Мамедгулузаде выделяется богатством социального смысла, высоким художественным отражением важных проблем времени. Каждая его пьеса представляет собой сплав комических, драматических и трагических мотивов. В таких произведениях Джалил Мамедгулузаде описывает человеческие характеры, их становление и развитие; раскрывает возникновение и обострение социальных конфликтов через диалоги, возникающие из взаимоотношений. Его драматургия «по своему социальному содержанию, идеям и художественным особенностям» занимает особое место в богатом и многогранном литературном наследии и формирует новый этап в истории азербайджанской драматургии. Народный писатель Мирза Ибрагимов так писал о творчестве Джалила Мамедгулузаде: «Комедии Джалила Мамедгулузаде открывают третий период развития азербайджанской драматургии. Характерной чертой этого периода является резкое усиление политического реализма и создание сатирической драмы. Драматургическое творчество Мирзы Джалиля было прежде всего тесно связано с драматургией Мирзы Фатали Ахундова, а затем Наджаф бека Везирова, Абдуррахим бека Хагвердиева, Наримана Нариманова. Скорее, это было продолжение наиболее бурного периода общественной и художественной мысли на новой почве, в новых общественно-политических условиях. С 1905 года начинается новый этап в развитии творчества Дж.Мамедгулузаде. Каждый литературный жанр

сам по себе проходит новый этап развития. В этот период, охватывающий 1905 год, рассказы писателя получают дальнейшее развитие и обогащение как по тематике, так и по художественному исполнению.

**YEGANA HUSEYNOVA**

## LEADER OF NATIONAL INDEPENDENT LITERATURE – J. MAMMADGULUZADE

***Keywords:*** *Literary, national, creativity, literature, dramaturgy*

Jalil Mammadguluzadeh's dramaturgical heritage, richness in social sense, and high artistic reflection of the important problems of the time stand out. Each of his plays appears as a fusion of comic, dramatic and tragic motifs. In such works, Jalil Mammadguluzade describes human characters, their formation and development; reveals the emergence and aggravation of social conflicts through dialogues arising from mutual relations. His dramaturgy occupies a special place in the rich and multifaceted literary heritage and forms a new stage in the history of Azerbaijani dramaturgy "according to its social content, ideas, and artistic features". National writer Mirza Ibrahimov wrote about Jalil Mammadguluzade's work: "Jalil Mammadguluzade's comedies open the third period of the development of Azerbaijani dramaturgy. The characteristic of this period is that realism became acutely political, and the creation of satirical drama. Mirza Jalil's dramaturgical creativity was first of all closely connected with the dramaturgy of Mirza Fatali Akhundov and later Najaf bey Vazirov, Abdurrahim bey Hagverdiyev, and Nariman Narimanov. Rather, it was the continuation of the most turbulent period of social and artistic thought on their new ground, in new socio-political conditions. Since 1905, a new stage in the development of C. Mammadguluzade's creativity begins. Each literary genre goes through a new stage of development in itself. In this period, covering the years 1905, the writer's stories are further developed and enriched both in terms of subject and artistic craftsmanship. In these years, the writer's creativity is occupied by more important issues of time and social life. In his first works, the author wrote mainly about the village and peasant life, the oppression of the beykhan, and later chose the subject of the workers' life for his stories. Criticism of Eastern inertia and religious superstitions, which distance workers from social and political life, effective example and struggle, occupies an important place in the works of C. Mammadguluzade.

**Rəyçi: prof. Bədirxan Əhmədov**